**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının muxtar respublika daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər haqqında**

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Un istehsalı ilə məşğul olan şəxslərə satılan unun hər tonuna görə bu Qərarın 2-ci hissəsi ilə müəyyən edilmiş qaydada 2021-ci il fevralın 1-dən mayın 1-dək olan dövrdə 35 (otuz beş) manat məbləğində subsidiya verilsin.

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi qaydasını təsdiq etsin;

2.2. un istehsalçılarına verilən subsidiyanın bu qaydaya uyğun ödənilməsini təmin etsin;

2.3. un istehsalçılarına ödənilmiş subsidiya barədə icmal hesabatı 2021-ci il 1 iyun tarixinədək Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Bu Qərarın 1-ci və 2-ci hissələrinə uyğun olaraq subsidiyaların Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin Ehtiyat Fondundan ayrılmış vəsait hesabına ödənilməsi təmin edilsin.

4. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, 22 fevral 2021-ci il

№ 46